# *TARİXİN TƏDRİSİ METODİKASI*
# *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ*
# *METHOS TEACHING HISTORY*

*UOT 372.894(47)Az*

***Turanə Fazil qızı İsmayılova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org//0000-0001-6462-7759*
https://doi.org/10.69682/azrt.2024.91(2).144-147

## TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİNDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNİN MÖVCUD PROQRAM VƏ ƏDƏBİYYATLARDA TƏHLİLİ VƏZİYYƏTİ

***Турана Фазиль гызы Исмайлова***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

## АНАЛИЗ СУЩЕСТВУЮЩИХ ПРОГРАММ И ЛИТЕРАТУРЫ ПРЕПОДАВАНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ПОВЫШЕНИИ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ СТУДЕНТОВ

***Turana Fazıl Ismailova***
*doctorial student in the program of doctor of philosophy at*
*Institute Education of the Republic of Azerbaijan*

## ANALYSIS OF THE CURRENT PROGRAM AND LITERATURE OF THE TEACHING OF AZERBAIJAN HISTORY IN INCREASE OF COGNITIVE ACTIVITY OF STUDENTS

**Xülasə.** Məqalədə ilk növbədə ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin müasir metodik vəsait, dərs vəsaiti, dərsliklərdə müasir rolu və imkanlarından bəhs olunur. Elmi araşdırmalar və təcrübə göstərir ki, Azərbaycan tarixi dərslərinin tədrisində idrak fəallığının inkişafının son dövrlərdə xüsusilə yeni dərs vəsaiti, metodik vəsait və dərsliklərdə nəzərə alınması tələbələrin akademik mühitdə və gündəlik həyatda uğur qazanmasına təkan verir .
***Açar sözlər:*** *Ali məktəb, Azərbaycan tarixinin tədrisi , Azərbaycan tarixi, idrak fəallığı, təlim prosesi , dərslik, dərs vəsaiti, metodik vəsait*

**Резюме:** В статье, в первую очередь, повествуется о современной роли и возможностях развития познавательной деятельности студентов при преподавании истории Азербайджана в высших школах. Научные исследования и опыт показывают, что развитие познавательной деятельности при преподавании уроков истории Азербайджана, особенно в новых учебных пособиях, методических пособиях и учебниках, способствует достижению успехов студентов в академической среде и в повседневной жизни.
***Ключевые слова:*** *Высшая школа, преподавание истории Азербайджана, история Азербайджана, познавательная активность, учебный процесс, учебник, учебное пособие, методическое пособие*

**Summary:** First of all, the article talks about the modern role and possibilities of developing the cognitive activity of students in the teaching of Azerbaijani history in higher schools. Scientific research and experience show that the development of cognitive activity in the teaching of Azerbaijani history lessons,

especially in new teaching aids, methodical aids and textbooks, encourages students to succeed in the academic environment and in everyday life.

***Keywords:*** *Higher school, teaching of Azerbaijani history, Azerbaijani history, cognitive activity, learning process, textbook, teaching aid, methodical aid*

Ali təhsilin inkişafının müasir tendensiyası onun müəllimdən tələbəyə yönəldilməsini nəzərdə tutur [9, s.58].

Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində idrak fəallığının yüksəldilməsi probleminin təhlili üçün hazırlanmış konkret ədəbiyyat mövcud deyil. Lakin konkret olmasa da bütün təhlil apardığımız proqram və metodik ədəbiyyatlarda, dərs vəsaiti və dərsliklərdə bu məsələ ön plana çəkilmiş, işıqlandırılır.

Problemimizə bağlı Azərbaycan tarixi proqramını təhlil edərkən görürük ki, qədim dövrdən müasir dövrə qədər tarix sistemli şəkildə verilmişdir. 2023 -cü ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin F-725 №-li 19.12.2022-ci il tarixli əmrinə əsasən çap edilmiş Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Tarix müəllimliyi” (050116) və “Tarix və Coğrafiya müəllimliyi” (050117) ixtisasları üzrə bakalavriat səviyyəsi Azərbaycan tarixi proqramına (müəlliflər: dos. N.Ə. Əhmədova və dos. Z.H. Kərimov, elmi red. prof. C.M. Cəfərov) nəzər salaq.

Cəmiyyət üçün yüksək ixtisaslı kadrlar hazırlamaq müasir dövrdə ali məktəblərin qarşısında duran əsas vəzifədir. Hər bir təhsil müəssisəsi çalışır ki, onun hazırladığı mütəxəssislər dərin nəzəri biliklərə və təcrübələrə, vərdişlərə yiyələnsinlər. Bütün bu vəzifələrin həyata keçirilməsi üçün ali məktəblərdə ictimai-siyasi fənlərin əsasını təşkil edən tarix fənninin , daha dəqiq desək, “Vətən tarixinin”nin keçirilməsi çox mühüm əhəmiyyətə malikdir. “ADPU”-nun “Tarix və coğrafiya” müəllimliyi ixtisaslarında təhsil alan tələbələr üçün nəzərdə tutulmuş Azərbaycan tarixi proqramının tərtibi məhz həmin zərurətdən doğmuşdur. “Azərbaycan tarixi” fənni ali Təhsil Pilləsinin Dövlət Standartlarının bakalavr səviyyəsinin tarix müəllimliyi və tarix coğrafiya müəllimliyi ixtisası üzrə Təhsil Proqramının ixtisas-peşə hazırlığı fənləri bölümünün baza (məcburi) fənnidir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin yeni müəyyənləşdirilmiş Bakalavriat təhsil səviyyəsinin ixtisas üzrə Təhsil Proqramına (2020) əsasən ali təhsil müəssisələrində bütün ixtisaslar üzrə “Azərbaycan tarixi” fənninin tədrisinin mühüm əhəmiyyəti və zəruriliyi nəzərə alınmaqla, bu fənn ixtisasın ümumi fənlər bölümünə daxil edilmişdir

| | Fənn | İxtisas | Müh. saatı | Seminar saatı | Cəmi saat |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan tarixi -1 | Tarix müəllimliyi | 45 | 45 | 90 |
| 2. | Azərbaycan tarixi -1 | Tarix coğrafiya müəllimliyi | 30 | 30 | 60 |
| 3. | Azərbaycan tarixi -2 | Tarix müəllimliyi | 45 | 45 | 90 |
| 4. | Azərbaycan tarixi -2 | Tarix coğrafiya müəllimliyi | 45 | 30 | 75 |
| 5. | Azərbaycan tarixi -3 | Tarix müəllimliyi | 45 | 45 | 90 |

[11. s.3].

Tərtib olunan fənn proqramında “Azərbaycan tarixi” fənninin tədrisinin məqsəd və vəzifələri, fənnin Tədris planında yeri və rolu, fənnin tədris prosesində təhsilalanların qazanacaqları kompetensiyalar (səriştələr), fənnin tədrisi üçün nəzərdə tutulmuş təhsil kredit vahidlərinin auditoriya və auditoriyadan kənar dərs saatları ilə ifadəsi, fənnə aid mövzular və onla-

rın məzmunu, fənnin tədrisinin texnologiyası, fənnin mənimsənilməsinə nəzarət sxemi, nəzəri və praktiki dərslərin mövzular üzrə bölgüsü, fənnin dərindən və hərtərəfli öyrənilməsi üçün tövsiyyə olunan ədəbiyyat siyahısı öz əksini tapmışdır [12. s. 3].

Tarixin tədrisi metodikasının bir elm kimi müxtəlif tarixi dövrlərdəki inkişaf mərhələlərində əsas problemləri olmuşdur. Məlumdur ki, iki əsrə yaxın nə çar imperiyası, nə də onun varisi Sovet hakimiyyəti dövründə məktəblərdə milli tarixlərin geniş və məqsədyönlü şəkildə tədrisindən danışmaq düzgün olmazdı. Təbii ki, belə bir şəraitdə tarixin tədrisi metodikası bir elm kimi millilik baxımından inkişaf edə bilməzdi [13, s.7].

Azərbaycan tarixinin tələbələrə mənimsədilməsində mühüm rol oynayan Azərbaycan tarixi 7 cildinə qısaca nəzər salaq:

"Yeddi cildliyin birinci cildində" [1] Azərbaycan tarixinə giriş, onun obyekti və predmeti, ibtidai icma və qədim dövr məsələlərinin daha geniş öyrənilməsinə, ikinci cildi" [2] ölkəmizin erkən orta əsrlər tarixi işıqlandırılmasına, 3-cü cildi" [3] Vətənimizin XIII əsrdən başlayaraq son dövrünün işıqlandırılmasına monqol əsarəti və onun nəticələri, burada təşəkkül tapan Azərbaycan dövlətlərinin tarixi, onların yaranması, süqutu, xanlıqlar dövrü, xalqımızın xarici işğalçıların təcavüzünə qarşı zadlıq mübarizəsi, eləcə də dövrün ictimai-iqtisadi, mədəni həyatı ətraflı şəkildə işıqlandırılmasına, IV cildi [4] XIX əsr Azərbaycan tarixinin əsas sahələrinə - XIX əsrin başlanğıcında Çar Rusiyası Şimali Azərbaycanı istila etməsi ölkəmizin şimal hissəsi Rusiya tərkibinə qatılmasına, istilanın gedişi, çar Rusiyasının Şimali Azərbaycanı ucqar müstəmləkəyə çevirməsi siyasəti, xalqın ona qarşı mübarizəsi, ölkənin sosial -iqtisadi siyasi, mədəniyyət tarixi, XIX əsrin son rübündə burada kapitalist münasibətlərinin qərarlaşması, bununla əlaqədar sənayenin, kənd təsərrüfatının inkişaf xüsusiyyətləri, sosial dəyişikliklər, ictimai-siyasi hadisələr, eləcə də Azərbaycan xalqının millət kimi təşəkkül tapması, milli şüurun yüksəlişi, Azərbaycan dili və mədəniyyətinin inkişaf mərhələləri kifayət qədər işıqlandırılmasına həsr edilmişdir. Azərbaycan tarixinin 1900-1920-ci illər dövrünü əhatə edən "Yeddi cildliyin beşinci cildi" [5] Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələnən milli azadlıq hərəkatından geniş şəkildə bəhs edərək bilik mənbəyi kimi tələbələr üçün kifayət qədər didaktik cəhətdən yetərlidir, sxem, cədvəl, şəkil, illüstrasiyalar ilə də diqqət cəlb edir. Azərbaycan tarixinin XX əsrin 20-ci 30-cu illərini əhatə edən, "Yeddi cildliyin VI cildi" çoxlu ədəbiyyatlardan istifadə olunmaqla ümumiləşdirilmiş tarixi faktlar əsasında Sosialist quruculuğunun başlanması, aqrar sahədə kollektivləşmənin başlanması, ölkə əhalisinin nisbətən iqtisadi və mədəni, intellektual cəhətdən fərqlənən təbəqəsinin kütləvi surətdə sürgünlərə məruz qalması; sənayeləşdirmənin sürətləndirilməsi; ölkənin elektrikləşdirilməsi; mədəni quruculuq və s. əhatə etməklə diqqət cəlb edir [6] .

"Yeddi cildliyin VII cildi" [7] həm məzmununa, həm tərtibinə, həm də Azərbaycan tarixinin ən yeni dövrünü əhatə etməsi ilə ali təhsil müəssələrində mühüm istifadə edilən kitablar sırasındadır. Azərbaycan tarixinin 7-ci cildi Azərbaycanın 1941-ci il iyun ayından 2002-ciilədək olan mürəkkəb, ziddiyyətli tarixi dövrü əks etdirir.

E. Bəkirovanın müəllifi olduğu monoqrafiyada Cənubi Qafqazın ən qədim dövlətlərindən olan Albaniya dövlətinin qərb ərazilərinin siyasi tarixi, tarixi coğrafiyası, əhali tarixi, təsərrüfat həyatı, bu sərhədlər daxilində baş vermiş siyasi və mədəni proseslər təhlil edilir [10 ].

R.Ə. Ağayevin Ərəb Xilafəti dövründə Azərbaycan əhalisi adlı monoqrafiyası [8] Azərbaycan tarixinin Ərəb xilafəti dövrü ilə bağlı tələbələrin bilikləri dərin mənimsəməsində müsbət əhəmiyyətlidir.

**Problemin elmi yeniliyi.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsində yazılan müasir dərs və dərs vəsaitlərinin vacib hissələri və vacibliyi ilə əlaqədar səmərəli fikirlər irəli sürülmüşdür.

**Problemin praktik əhəmiyyəti.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi ilə bağlı qeyd edilən ədəbiyyatlar təlim, tədris prosesi üçün mühüm əhəmiyyət kəsb edir.

**Problemin aktuallığı.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsində müasir dərs vəsaiti, metodik ədəbiyyat və dərsliklərin araşdırılmasının mühüm əhəmiyyəti vardır. Problem baxımından aktuallıq təşkil edir.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi: 7 cilddə, I c. (Ən qədimdən -b.e.III əsri). -Bakı : “Elm”, -2007. -520.+40 s. illüstrasiya.
2. Azərbaycan tarixi: 7 cilddə, II c. ( III-XIII əsrin I rübü). -Bakı : “Elm”, -2007. -608s+ 24 s. illüstrasiya
3. Azərbaycan tarixi: 7 cilddə, III c. (XIII-XVIII əsrlər). -Bakı : “Elm”, -2007. -592.+56 s. illüstrasiya.
4. Azərbaycan tarixi: 7 cilddə, IV c. (XIX Əsr ). -Bakı : “Elm”, -2007. -504.+48 s. illüstrasiya.
5. Azərbaycan tarixi: 7 cilddə, V c. (1900-1920-ci illər). -Bakı : “Elm”, -2008. -696 .+40 s. illüstrasiya.
6. Azərbaycan tarixi: 7 cilddə, VI c. (aprel 1920-iyun 1941). -Bakı : “Elm”, 2008. -568.+48 s. illüstrasiya.
7. Azərbaycan tarixi : 7 cilddə, VII c. (1941-2000-ci illər). -Bakı : “Elm”, 2008. -608.+ 80 s. illüstrasiya.
8. Ağayev, R.Ə. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. / R.Ə. Ağayev. -Bakı: Turxan NPB, -2017. -344 s. 8
9. Balonya prosesində istifadə edilən termin və anlayışların izahlı lüğəti. University of Genoa -Odlar Yurdu Universiteti -Bakı, 2014. – s. 9.
10. Bəkirova, E. Albaniyanın qərb torpaqları (antik dövr). Xəritə və şəkil. “İdeal-Print” MMC, -Bakı, 2021, - 220 s. 10
11. Əhmədova, N.Ə. Azərbaycan tarixi proqramı. “Tarix müəllimliyi” və “Tarix və coğrafiya müəllimliyi ” ixtisasları üçün bakalavriat səviyyəsi üzrə. N.Ə. Əhmədova, Z.H. Kərimov- Bakı : ADPU -nun nəşriyyatı, -2023. -121 s. 11
12. Əhmədova, N.Ə. Azərbaycan tarixi proqramı. Qeyri -ixtisaslar üçün bakalavriat səviyyəsi üzrə. N.Ə. Əhmədova, Z.H. Kərimov- Bakı: ADPU -nun nəşriyyatı, -2023. -174 s. 12
13. Əliyev, R. Müasir mərhələdə vətən tarixindən proqram və dərsliklərin hazırlanmasının aktual problemlər.- Bakı: ADPU, -74 s.


**E-mail:** turanaismayilova1122@gmail.com
**Redaksiyaya qəbul olub:**18.03.2024